# Adları "Qızıl kitaba" yazılmış gənc istedadlarımız

## Paytaxt məktəblisi ölkə Prezidentinə minnətdarlıq edir



Azərbaycan Respublikasının Prezidentinin 13 iyun 2016-cı il tarixli sərəncamı ilə musiqi sahəsində xüsusi istedadı olan bir qrup ifaçımızın adı Azərbaycanın gənc istedadlarının "Qızıl kitabı"na yazılmaqla onlar xüsusi aylıq təqaüdə layiq görülüb. Onlardan biri də Emil Əhmədzadədir. Emil 2000-ci ildə Bakıda anadan olub. Paytaxtdakı Rauf Hacıyev adına 15 nömrəli onbirillik musiqi məktəbinin VIII sinfində fortepiano ixtisası üzrə təhsil alır. Bir çox beynəlxalq müsabiqə və festivalların qalibi olan Emil Əhmədzadə 2012-ci ildə Mədəniyyət və Turizm Nazirliyinin təşkilatçılığı ilə keçirilən gənc pianoçuların respublika müsabiqəsində iştirak edərək laureat adını qazanıb. Həmin il Almaniyada keçirilən "Münhen ulduzları", Macarıstanda "Macar oyunları" və "Budapeşt ulduzları" beynəlxalq müsabiqələrində, Moskvada keçirilən V.Spivakov adına XI beynəlxalq festivalda və Çelyabinsk şəhərində "Dostluğun ipək yolu: Mədəniyyətlərarası dialoq" adlı layihə çərçivəsində keçirilən festivallarda, Gürcüstanda keçirilən pianoçuların VI beynəlxalq müsabiqəsində Azərbaycanı uğurla təmsil edərək diplomlarla mükafatlandırılıb. 2015-ci ildə isə Estoniyanın Narva şəhərində keçirilən pianoçuların müsabiqəsində uğurlu ifaları ilə tamaşaçılarda xoş ovqat yaradıb.

Bu gün Azərbaycan incəsənətini, musiqisini fitri istedadı ilə dünyaya tanıdıran Emil Əhmədzadə bu incə sənətin sirlərini ona mənimsədən müəllimlərinə, istedad və bacarığının üzə çıxarılmasında göstərdikləri dəstəyə görə hər kəsə minnətdar olduğunu söyləyir. Ona göstərilən etimadı doğrultmaq üçün daha səylə çalışacağına söz verən paytaxt məktəblisi yaradıcılıq imkanlarının genişlənməsi üçün yaradılan şəraitə görə ölkə rəhbərinə dərin təşəkkürünü ifadə edir.

## Göstərilən etimadı doğruldacağına əmindir



Şükür Omarlı 2000-ci ildə Ağsu rayonunda anadan olub. Bakıdakı Rauf Hacıyev adına 15 nömrəli onbirillik musiqi məktəbində Svetlana Əliyevanın sinfində kamança dərsləri alır. O, 2012-ci ildə Mədəniyyət və Turizm Nazirliyinin Bülbül fondunun, Təhsil Nazirliyi və Bülbül adına Orta İxtisas Musiqi Məktəbinin keçirdiyi Azərbaycan professional vokal sənətinin banisi, SSRİ xalq artisti Bülbülün anadan olmasının 115 illik yubileyinə həsr olunan milli musiqi alətləri ifaçıları və xanəndələrin I müsabiqəsində I dərəcəli, 2013-cü ildə ümummilli lider Heydər Əliyevin anadan olmasının 90 illik yubileyinə həsr olunan gənc ifaçıların II Respublika müsabiqəsində II dərəcəli diploma layiq görülüb. Həmin ildə Şükür Üzeyir Hacıbəyli adına V Beynəlxalq musiqi festivalında iştirak edərək uğur qazanıb. 2014-cü ildə Moskvada keçirilən "Zimnaya karusel" adlı Beynəlxalq internet müsabiqəsində Qran-priyə, Mədəniyyət və Turizm Nazirliyinin təşkil etdiyi uşaq və gənclər arasında xalq çalğı alətləri ifaçılarının III Respublika müsabiqəsində I dərəcəli diploma, Çelyabinsk şəhərində "Dostluğun ipək yolu: Mədəniyyətlərarası dialoq" adlı layihə çərçivəsində keçirilən festivallarda uğurlu çıxışlarına görə diplom və fəxri fərmana layiq görülüb.

Şükür Omarlı beynəlxalq müsabiqələrdə ölkəmizi layiqincə təmsil edəcəyinə və bu istedad yarışmalarında adının birincilər sırasında olacağına əmindir.

İstedad və bacarığı, xüsusi ifaçılıq qabiliyyəti ilə tamaşaçıları heyrətləndirən Şükür Omarlı adının Azərbaycanın gənc istedadlarının "Qızıl kitabı"na daxil edildiyinə və xüsusi aylıq təqaüdə layiq görüldüyünə görə qürur hissi keçirir və Prezident İlham Əliyevə öz minnətdarlığını bildirir.

## Uğurlarına görə müəllim və valideynlərinə borcludur



Soltan Səmədli 1996-cı ildə Bakıda anadan olub. O, paytaxtdakı Sağlamlıq imkanları məhdud uşaqlar üçün 5 nömrəli Respublika xüsusi internat məktəbini bitirib. Gözdən əlil uşaqlar üçün 38 nömrəli onbirillik musiqi məktəbində tar ixtisası üzrə təhsil alıb. Gənc tarzən musiqi və incəsənət məktəbləri şagirdlərinin xalq çalğı alətləri üzrə II Respublika, Əlillərin V Ümumrespublika bədii yaradıcılıq baxış-müsabiqələrində uğurlu çıxışına görə diplomlarla mükafatlandırılıb. 2011-ci ildə Azərbaycanın dövlət müstəqilliyinin bərpasının iyirminci ildönümünə həsr olunmuş milli musiqi alətləri ifaçılarının Respublika festivalında, 2013-cü ildə ümummilli lider Heydər Əliyevin anadan olmasının 90 illik yubileyi münasibətilə ümumtəhsil və orta ixtisas təhsili müəssisələrinin şagird və tələbələri arasında keçirilmiş gənc ifaçıların II Respublika müsabiqəsində çıxışlarına görə diplom və medala layiq görülüb. 2013-cü ildə Azərbaycan Respublikasının Prezidenti yanında Gənclər Fondunun təşkil etdiyi Sağlamlıq imkanları məhdud uşaqlar üçün 5 nömrəli Respublika xüsusi internat məktəbində həyata keçirilən "Mən də varam" fərdi qabiliyyət müsabiqəsində Qran-pri mükafatına, həmin il Bakıda keçirilən "Şərq nağılı" Beynəlxalq müsabiqəsində isə diploma sahib olub. 2013-cü ildə Gənclər və İdman Nazirliyi və UNİCEF-in təşkilatçılığı ilə "Bacarıqlara məhdudiyyət yoxdur" devizi altında keçirilən yeniyetmələr üçün fotoqrafiya üzrə təlim kursunda fərqlənib. 2014-cü ildə "İçəri Şəhər-yaşayan tarix, keçmişimiz gələcəyimizin təqdimatında" mədəni sosial layihələri çərçivəsində keçirilən "An Fototur" tədbirində fəal iştirakına görə sertifikat qazanıb.

Əldə etdiyi uğurlara görə özünü müəllimlərinə və valideynlərinə borclu hesab edir.

Dəfələrlə müsabiqələr qalibi olan Soltan Səmədlinin adı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq sərəncamı ilə Azərbaycanın gənc istedadlarının "Qızıl kitabı"na yazılıb və o, xüsusi aylıq təqaüdə layiq görülüb.

Hazırda o, Azərbaycan Milli Konservatoriyasının tələbəsidir.

## Beynəlxalq müsabiqə və festivalların qalibi



Emil Bağırov 2013-cü ildə Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasına daxil olub. Hazırda bu təhsil ocağının istedadlı gənc musiqiçilərindən biridir. O, hələ uşaq yaşlarından musiqiyə böyük maraq göstərib. Bu gün isə istedad və bacarığı ilə ölkəmizi xaricdə uğurla təmsil edir.

2010-cu ildə Gənclər Simfonik Orkestrinin müşayiəti ilə Azərbaycanda və xarici ölkələrdə konsertlərdə olub. 2010-2011-ci illərdə keçirilən M.Rostropoviç adına festivalda iştirak edərək M.L.Rostropoviç Fondunun təqaüdünə layiq görülüb.

Bundan başqa, Emil Bağırov Qara Qarayev adına Kamera Orkestri ilə respublikamızda və onun hüdudlarından kənarda klassik musiqi irsimizi təbliğ edib.

Emilin qeyri-adi istedad sahibi olduğu göz önündədir. Azərbaycanın adını müxtəlif beynəlxalq müsabiqələrdə və forumlarda yüksəklərə qaldıran bu gənci gələcəkdə daha böyük uğurlar gözləyir. Emil Bağırovun adı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq sərəncamı ilə Azərbaycanın gənc istedadlarının "Qızıl kitabı"na yazılıb və o, xüsusi aylıq təqaüdə layiq görülüb.

## Violonçel ifaçısının parlaq gələcəyi var



Orxan Hüseynov 1999-cu ildə Bakı şəhərində ziyalı ailəsində anadan olub. 2006-cı ildən Q.Qarayev adına 8 nömrəli onbirillik musiqi məktəbində Bakı Musiqi Akademiyasının "Orkestr alətləri fakültəsinin" dekanı, əməkdar incəsənət xadimi, professor Nəzmiyə Abbaszadənin sinfində violonçel ixtisası üzrə təhsil almağa başlayıb. Musiqi istedadı ilə fərqlənən Orxan 2013-cü ilin iyununda yeddiillik təhsili əla qiymətlərlə başa vuraraq violonçel ixtisası üzrə əlaçı şəhadətnaməsi alıb və hazırda həmin məktəbdə tam onbirillik musiqi təhsili alır. Təbiətən səmimi və ciddi, nizam-intizamlı və məsuliyyətli, səhnə mədəniyyəti və görkəminə malik olan Orxan musiqi məktəbində təhsil aldığı illər ərzində klassik musiqiyə göstərdiyi hədsiz həvəs və bacarığı sayəsində bir çox uğurlara imza atıb, ölkəmizdə keçirilən respublika və beynəlxalq müsabiqələrdə laureat adını qazanmaqla dəfələrlə I yerə layiq görülüb. 2009-cu ildə Leopold və Mstislav Rostropoviçlər adına gənc ifaçıların I Bakı müsabiqəsində II, 2010-cu ildə N.Əliverdibəyov adına gənc ifaçıların V ümumşəhər müsabiqəsində I yerləri qazanaraq diplomlarla mükafatlandırılıb.

2012-ci ildə "İslam dünyası gənclərinin (20 yaşa qədər) klassik musiqi ifaçılarının I Beynəlxalq festival-müsabiqəsi"ndə ən yaxşı gənc ifaçı diplomu ilə, 2014-cü ildə "İslam dünyası gənclərinin (20 yaşa qədər) klassik musiqi ifaçılarının III Beynəlxalq festival-müsabiqəsi"ndə "Dolçe Vita" kvintetinin tərkibində iştirak edərək diploma layiq görülüb. 2015-ci ildə 1941-1945-ci illərdə Böyük Vətən müharibəsində faşizm üzərində qələbənin 70 illiyinə həsr olunan rus klassik və xalq musiqisi, mahnı və rəqslərindən ibarət "Könül çeşmələri" (Rodniki duşi) adlı XI respublika baxış-müsabiqəsinin qalibi olaraq I yeri qazanıb.

Ölkə Prezidenti İlham Əliyevin müvafiq sərəncamı ilə Orxan Hüseynovun adı Azərbaycanın gənc istedadlarının "Qızıl kitabı"-na yazılıb o, xüsusi aylıq təqaüdə layiq görülüb.

Görkəmli sənət xadimlərimiz, incəsənət ustalarımız Orxanın musiqi sənətini yetərincə bəyənir və onun haqqında düşündüklərini musiqi ictimaiyyəti qarşısında səmimi şəkildə ifadə edirlər. Görkəmli dirijor R.Abdullayev, əməkdar incəsənət xadimi F.Kərimov, məşhur violonçel ustası B.Qerinqaş, beynəlxalq Rostropoviç fondunun fəal təqaüdçü üzvü, gözəl ifaçı L.Ravişvili Orxanın ifasını yüksək qiymətləndirir, onu Azərbaycan klassik violonçel musiqisinin parlaq gələcəyi, musiqi səhnəsinin yaraşığı adlandırırlar.

## Bu yüksək qiymət onu daha böyük uğurlara ruhlandırır



Emin Eminzadə 1997-ci ildə Bakıda anadan olub. Paytaxtdakı İlyas Əfəndiyev adına "Elitar" gimnaziyanı bitirib. Beynəlxalq müsabiqələr laureatı olan istedadlı gənc bir il ABŞ Dövlət Departamentinin və Təhsil Nazirliyinin dəstəyi ilə Texas ştatındakı "Marshall High School"da musiqi təhsili alıb. Amerikada təhsil aldığı bir il müddətində o, sənədlərini Amerika Musiqili və Dramatik Akademiyasına verib və imtahanlardan uğur qazanaraq ora daxil olub. Qeyd edək ki, E. Eminzadə bu məşhur musiqi akademiyasına daxil olan ilk azərbaycanlıdır. O, Texas ştatında dəfələrlə Azərbaycan mədəniyyəti və incəsənətinin təbliği ilə bağlı təqdimatlarda fəallıq göstərərək milli mədəniyyətimizlə amerikalıları yaxından tanış edib. Orada olduğu müddətdə dəfələrlə konsertlər verib. Gənc vokalçı bu günədək İtaliya, İspaniya, Qazaxıstan, ABŞ-da və Hollandiyada keçirilən beynəlxalq musiqi yarışmalarında böyük istedad nümayiş etdirərək laureat adına, diplomlara, mükafatlara layiq görülüb.

Emin Eminzadənin repertuarında türk, rus, ingilis, italyan və ispan dillərində mahnılar yer alır. O, həm də bu dillərdə sərbəst danışır.

Bakıdakı G.Şaroyev adına 35 nömrəli onbirillik musiqi məktəbinin vokal sinfini əla qiymətlərlə bitirən gənc vokalçı haqqında Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təsisçisi və baş redaktoru olduğu və Moskvada nəşr olunan "Baku" və "Amor" jurnallarında ətraflı bəhs olunub və onun musiqi sahəsində qazandığı uğurlardan söhbət açılıb.

Beynəlxalq müsabiqə və festivallarda əsl istedad nümayiş etdirən Emin Eminzadə ölkə başçısının müvafiq sərəncamı ilə adı Azərbaycanın gənc istedadlarının "Qızıl kitabı" na daxil edilməklə xüsusi aylıq təqaüdə layiq görülüb. Gənc ifaçı daha böyük nailiyyətlər əldə edəcəyinə əmindir. Dövlət tərəfindən istedadına verilən qiymət onu daha böyük uğurlara ruhlandırır.

Hazırda Emin Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasında təhsil alır.

## Arzusu gələcəkdə görkəmli pianoçu olmaqdır



Suada Hacızadə 1999-cu ildə Bakı şəhərində anadan olub. Hələ uşaq yaşlarından musiqiyə həvəs göstərib, mahnılar oxuyub, televiziyada yayımlanan uşaq verilişlərini, konsertləri həvəslə izləyib. 4 yaşında olarkən bədii gimnastika ilə məşğul olmağa başlayıb. Musiqiyə olan marağını nəzərə alan valideynləri Suadanı 3 yaşından Uşaq Filarmoniyasına, Oqtay Zulfüqarovun rəhbərlik etdiyi ansambla gətirib. Bu ansamblda məşğul olmağı Suadanın gələcəyinə böyük təsir göstərib. Oqtay Zülfüqarovun rəhbərliyi altında atılan ilk addımlar Suadanı Yasamal rayonundakı 16 nömrəli uşaq musiqi məktəbinə gətirib. Burada isə Suada Qara Qarayevin tələbələrindən olan Afa Fiqarova ilə fortepiano dünyasına ilk addımlarını atıb. Ümumi təhsilə isə Bakı Avropa Liseyində başlayıb. Hazırda o, Namiq Axundov adına I nömrəli tam orta məktəbin şagirdidir, eyni zamanda Georgi Şaroyev adına 35 nömrəli onbirillik musiqi məktəbində təhsilini davam etdirir.

Suada Hacızadə 2012-ci ildə Estoniyanın Tallin şəhərində keçirilmiş beynəlxalq fortepiano müsabiqəsində III yeri qazanaraq laureat adına, Azərbaycan bəstəkarlarının əsərlərinin parlaq ifasına görə diploma layiq görülüb. 2013-cü ildə Estoniyanın Narva şəhərində dahi bəstəkar İohan Sebastyan Baxın şərəfinə gənc pianoçular arasında keçirilən beynəlxalq müsabiqədə II, həmin il Hollandiyanın Hilversum şəhərində "Perpetuum Mobile" fortepiano üzrə beynəlxalq müsabiqədə II, 2014-cü ildə Polşanın Varşava şəhərində "Juliyus Zarebski" adına fortepiano üzrə XIV beynəlxalq müsabiqədə II, 2014-cü ildə isə Rus Mədəniyyəti Mərkəzinin Mixail Lermontovun 200 illik yubileyi ilə əlaqədar keçirdiyi "Rodniki dushi" adlı X respublika müsabiqə-festivalında ən yaxşı rus xalq və klassik musiqisinin ifasına görə I yerin qalibi və laureat adına layiq görülüb.

"Hər insanın bir arzusu var, mənim də arzum dünyanın ən tanınmış ifaçıları sırasında olmaqdır və ən məşhur dünya səhnələrində Azərbaycan mədəniyyəti və musiqisini bütün dünyaya tanıtmaq, tariximizi, Qarabağ haqqında bütün həqiqətləri dünya ictimaiyyətinə çatdırmaqdır" - söyləyən gənc istedad sahibi üzərində əməyi olan musiqi müəllimlərinə minnətdar olduğunu bildirir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq sərəncamı ilə Suada Hacızadənin adı Azərbaycanın gənc istedadlarının "Qızıl kitabı"na yazılıb və o, xüsusi aylıq təqaüdə layiq görülüb.

**Səhifəni hazırladı: Sifai SƏFƏROVA,**
*"Azərbaycan müəllimi"*